**SMG XİDMƏTLƏRİ**

**XİDMƏT ŞƏRTLƏRİ**

**Qüvvəyə Minmə Tarixi:** Mart 2018

Bu Xidmət Şərtləri SMG Məxfilik Siyasəti ilə birlikdə ("**Şərtlər**") sizə bu Şərtlərin əlaqələndirilmiş yaxud istinad edilmiş olduğu (ümumiləşdirilmiş şəkildə, "**SMG Xidmətləri**")vebsaytlara, xidmətlərə və mobil tətbiqetmə proqramları da daxil olmaqla, tətbiqetmə proqramlarına Service Management Group, MMC və onun tabeçiliyində olan qrupların ("**SMG**" yaxud "biz" yaxud "bizə") giriş imkanı təklif etdiyi şərtləri təsvir edir.

SMG Xidmətlərinə giriş əldə etməzdən və onlardan istifadə etməzdən əvvəl bu Şərtləri diqqətlə oxuyun; onlar SMG ilə sizin aranızda hüquqi müqaviləni əks etdirirlər.

HƏR HANSI SMG XİDMƏTLƏRİNDƏN İSTİFADƏ ETMƏKLƏ SİZ BU ŞƏRTLƏRLƏ RAZILAŞIRSINIZ VƏ BUNLARI ETMƏK ÜÇÜN BACARIQLI VƏ HÜQUQİ CƏHƏTDƏN SƏLAHİYYƏTLİ OLDUĞUNUZU TƏSDİQLƏYİRSİNİZ. SMG XİDMƏTLƏRİNDƏN İŞƏGÖTÜRƏNİNİZ ADINDAN İSTİFADƏ ETDİYİNİZ HALDA BU ŞƏRTLƏRİ QƏBUL ETMƏNİZ, İŞƏGÖTÜRƏNİNİZ VƏ SMG ARASINDA MÜQAVİLƏ OLDUĞU HESAB EDİLİR VƏ BUNUNLA SİZ İŞƏGÖTÜRƏNİNİZİ BU ŞƏRTLƏRƏ TABE TUTMAĞA SƏLAHİYYƏTİNİZİN OLDUĞUNU ELAN ETMİŞ VƏ BUNA ZƏMANƏT VERMİŞ OLURSUNUZ.

VACİB QEYD: Bu Şərtlərin sizə olan öhdəliyimizi məhdudlaşdıracaq müddəaları var və onlar sizdən, hər hansı qrup və ya təmsilçilik qismində deyil, fərdi qaydada keçirilən son və mütləq arbitraja əsaslanaraq bizimlə olan istənilən mübahisəli məsələni həll etməyi tələb edirlər. Daha ətraflı məlumat üçün aşağıdakı "MÜQAVİLƏNİN HÜQUQİ QÜVVƏSİ, ZƏMANƏTLƏRDƏN İMTİNA VƏ MƏSULİYYƏT MƏHDUDLUĞU" (Bölmə 7) və "MÜBAHİSƏLƏRİN HƏLLİ" (Bölmə 9) nəzərdən keçirin.

**BU XİDMƏT ŞƏRTLƏRİNDƏ VƏ SMG MƏXFİLİK SİYASƏTİNDƏ YER ALMIŞ BÜTÜN ŞƏRTLƏRLƏ RAZILAŞMADIĞINIZ HALDA SMG XİDMƏTLƏRİNDƏN İSTİFADƏ EDƏ BİLMƏZSİNİZ.**

## 1. ŞƏRTLƏRƏ DƏYİŞİKLİKLƏR

Bu Şərtlərin Qüvvəyə Minmə Tarixi bu veb səhifənin yuxarısında yer alır. Yeni xüsusiyyətlər əlavə etdiyimiz halda bu Şərtlərə düzəlişlər edə bilərik. SMG istənilən vaxt Şərtləri yeniləyərək bu Şərtlərə düzəlişlər edə bilər. Siz istənilən belə düzəlişə əməl etməlisiniz; ona görə də, bu Şərtləri nəzərdən keçirmək üçün mütəmadi olaraq bu səhifəyə baş çəkməlisiniz. Sizin, dəyişikliklər edilmiş hər hansı Şərtlər yerləşdirildikdən sonra SMG Xidmətlərindən istifadə etməniz düzəlişlər edilmiş Şərtləri qəbul etdiyinizi göstərir. Düzəlişlər edilmiş Şərtlər , onlar haqqında olan müqavilələr, qeydlər yaxud bəyanatların bütün əvvəlki versiyalarından üstündürlər, lakin dəyişikliklər retroaktiv şəkildə tətbiq edilməyəcəklər.

## 2. ƏLAVƏ ŞƏRTLƏR

Mobil tətbiqetmə proqramları, lotereyalar, təkliflər, müsabiqələr və digər xidmətlər kimi, SMG Xidmətləri tərəfindən yaxud onun vasitəsilə təklif edilmiş bəzi xidmətlər onlarla birlikdə təqdim edilən əlavə şərtlərlə idarə oluna bilərlər ("Əlavə Şərtlər"). Siz belə xidmətlərdən istifadə etməzdən əvvəl Əlavə Şərtlərlə razılaşmalısınız. İstənilən əlavə şərtlər bu Şərtlərə əlavə olaraq tətbiq edilməlidirlər. Əlavə Şərtlərin hər hansı müddəası bu Şərtlərin hər hansı müddəasına zidd olduğu halda Əlavə Şərtlər bu Şərtlərdə olan ziddiyətli müddəaya və yalnız bu müddəanın ziddiyətli hissəsinə nəzərən üstünlük təşkil edir.

## 3. MƏXFİLİK/TƏHLÜKƏSİZLİK

SMG Xidmətlərindən istifadə etməzdən əvvəl SMG-nin, onun Xidmətlərindən istifadə ilə əlaqədar topladığı şəxsi məlumatlar, onları necə emal etdiyimiz və şəxsi məlumatları kimlərlə paylaşa biləcəyimiz barədə öyrənmək üçün SMG-nin Məxfilik Siyasətini diqqətlə oxuyun. Siz SMG-nin Məxfilik Siyasətinin surətini

## 4. SMG MƏZMUNU

SMG Xidmətləri, SMG Xidmətləri (ümumiləşdirilmiş şəkildə, "**SMG Məzmunu**") tərəfindən təqdim edilən istənilən məlumat, , şəkil, mətn, video klip, məlumat toplusu, proqram, audio klip, əmtəə nişanı, xidmət nişanları, xidmət jurnalı, ticarət markaları və digər materiallar SMG-yə, onun tabeçiliyində olan qurumlara, tərəfdaşlarına, lisenziyaverici orqanlarına yaxud onu təmsil edən şirkətlərə mənsubdurlar və həm Birləşmiş Ştatlar, həm də xarici müəllif hüququ, patent, əmtəə nişanı qanunları və digər qanunlar ilə qorunurlar. Aşağıdakı məhdud icazələr bölməsində göstərilən yaxud müvafiq qanunla tələb edilən hallar istisna olmaqla müəllif hüquqları, əmtəə nişanları, digər intellektual mülkiyyət, eləcə də SMG Xidmətlərinin hər hansı biri əvvəlcədən yazılı icazəmiz olmadan bütünlüklə yaxud hissələr şəklində, hər hansı məqsədlə istifadə edilə, çoxaldıla, duplikatı yaxud surəti çıxardıla, satıla, alınıb-satıla, əldə edilə, dəyişdirilə yaxud başqa cür istismar edilə bilməz. SMG Məzmunundan icazəsiz istifadə edilməsi müəllif hüququ, əmtəə nişanı qanunlarının və digər qanunların pozulmasına səbəb ola bilər.

Bu Şərtlərlə (həmçinin spesifik SMG Məzmunu ilə əlaqəsi olan istənilən şərtlərlə) razılaşdığınız halda, SMG sizi yalnız şəxsi istifadəniz üçün və bu Şərtlərə əsaslanaraq SMG Xidmətlərinə giriş əldə etmək, onlardan istifadə etmək, SMG Məzmununu endirmək, çap etmək və/yaxud surətini çıxarmaq üçün şəxsi, ləğv edilə bilən, müstəsna hüququ olmayan, ötürülə bilməyən, məhdud lisenziya (sublisenziya hüququ olmayan) ilə təmin edir. Siz SMG Xidmətlərinə daxil olan kommersiya sirləri və intellektual mülkiyyətdən lisenziya əsasında istifadə etmədiyinizi və etməyəcəyinizi yaxud başqa şəkildə sizə açıqlanmayacağını qəbul edirsiniz. Siz SMG-nin Xidmətlər səhifələrini formalaşdırmaq üçün yaratdığı HTML kodunun SMG-nin müəllif hüququ vasitəsilə qorunduğunu qəbul edirsininz. Verilməsi açıq şəkildə bilinməyən bütün hüquqlar SMGtərəfindən qorunur.

SMG-nin sizi əvvəlcədən yazılı icazə ilə təmin etmədiyi halda, aşağıdakıları <u>etməyəcəyinizlə</u> razılaşırsınız:

a. hər hansı SMG Məzmununu hər hansı digər işlə (vebsaytınız kimi) birləşdirmək yaxud SMG Məzmunununundan istənilən ictimai yaxud kommersiya məqsədi üçün istifadə etmək;
b. SMG Məzmununun bir hissəsi ola bilən müəllif hüququ, əmtəə nişanları hüquqları yaxud digər intellektual mülkiyyət hüquqları barədə hər hansı qeydlərə dəyişiklik etmək; yaxud
c. SMG Xidmətlərinin hər hansı birinə "dəqiq istinad" etmək (məs., SMG Xidmətlərinin birinin ana səhifəsinə deyil, hər hansı digər səhifəsinə istinad etmək ).

SMG Xidmətlərində göstərilən əmtəə nişanları, loqolar və xidmət nişanları ("Nişanlar") SMG-yə yaxud üçüncü tərəflərə məxsusdurlar. SMG-nin yaxud bu üçüncü tərəflərin əvvəlcədən yazılı icazəsi olmadan Nişanlardan istifadə etməniz qadağandır. SMG Məzmunundan istifadə etmək

üçün icazə almağın necə mümkün olduğunu öyrənmək üçün privacyofficer@smg.com ünvanına müraciət edin.

## 5. SMG XİDMƏTLƏRİNDƏN İSTİFADƏ EDİLMƏSİ

5.1. Tələblərə uyğunluq: Yaşadıqları ölkələrdə şəxsi məlumatlarının emal edilməsinə razılıq vermələrinə qanunla icazə verilən yaşdan kiçik olan uşaqların SMG Xidmətlərindən istifadə etməsi nəzərdə tutulmamışdır. Əgər ölkənizdə razılıq vermək üçün yetkinlik yaşına çatmamış hesab edilirsinizsə, siz SMG-nin Xidmətlərindən istifadə edə bilməzsiniz.

5.2. Hesabınız: SMG Xidmətlərinin bəzi xüsusiyyətlərindən istifadə etmək üçün hesabınızı (“**Hesab**”) yaratmanız tələb oluna bilər. Siz özünüz haqqında dəqiq, cari və son məlumatı təmin etməyə, saxlamağa və yeniləməyə razılıq verirsiniz. Siz kiminsə istifadəçi adı, şifrəsi yaxud digər hesab məlumatı və ya kiminsə adı, bənzərliyi, səsi, görünüşü yaxud foto şəklindən istfadə etməniz daxil olmaqla, özünüzü hansısa şəxs yaxud qurum kimi təqdim etməyəcəyinizlə və ya özünüz yaxud mənsubiyyətiniz barədə yanlış məlumat verməyəcəyinizlə razılaşırsınız. Siz həmçinin istifadəçi adınız, şifrəniz yaxud digər hesab məlumatınızdan icazəsiz olaraq istənilən şəkildə istifadə edilməsi yaxud SMG Xidmətlərindən istifadə edərkən təhlükəsizlik tələblərinin pozulması ilə rastlaşdığınız halda privacyofficer@smg.com vasitəsilə bizi dərhal məlumatlandıracağınızla razılaşırsınız.

**Hesab yaradarkən siz razılaşırsınız ki, SMG, Hesabınızı aktivləşdirən zaman təqdim etdiyiniz e-poçt ünvanından istifadə etməklə sizinlə əlaqə saxlaya bilər.**

Başqalarına Hesabınızdan istifadə etməyə icazə verməyin. Siz Hesabınızdan istifadə etmək imkanı verdiyiniz şəxslərin istifadəsi də daxil olmaqla, Hesabınızdan edilmiş istifadənin tamamına görə cavabdehsiniz.

5.3. Sizin Məsuliyyətinizə daxildir:

**SMG Xidmətlərindən yalnız qanuni məqsədlər üçün istifadə edəcəyiniz barədə razılaşmanız .** Siz razılaşırsınız ki, SMG Xidmətlərindən yalnız qanuni məqsədlər üçün istifadə edəcəksiniz. Siz SMG Xidmətlərindən SMG serverlərinə yaxud şəbəkələrinə zərər vuracaq, onları sıradan çıxaracaq, həddindən artıq yükləyəcək və ya onlara mənfi təsir edəcək şəkildə istifadə etməyəcəksiniz yaxud kiminsə SMG Xidmətlərindən istifadə etməsinə və istifadə edərək əylənməsinə mane olmayacaqsınız.

**SMG Xidmətlərindən qanunsuz və icazəsiz məqsədlər üçün istifadə etməyəcəyiniz barədə razılaşmanız.** Siz həmçinin hakerlik edərək, şifrə seçərək yaxud başqa yolla SMG Xidmətlərinə, digər istifadəçilərin Hesablarına yaxud SMG-nin kompüter sistemlərinə yaxud şəbəkələrinə icazəsiz şəkildə daxil olmağa cəhd etməyəcəyinizlə razılaşırsınız. Yuxarıda qeyd edilənlərin heç birinə məhdudiyyət gətirmədən aşağıdakıları etməyəcəyinizlə razılaşırsınız (və hər hansı üçüncü tərəfi buna təşviq etməyəcək yaxud etməsinə icazə verməyəcəksiniz):

a. SMG Xidmətləri yaxud SMG Məzmununun hər hansı hissəsini kopyalamaq, dəyişdirmək, uyğunlaşdırmaq, tərcümə etmək, əks layihələndirməsini həyata keçirmək, şifrəsini

açmaq yaxud başqa şəkildə onları ələ keçirməyə və ya onlara giriş əldə etməyə cəhd etmək;

b. SMG Xidmətləri yaxud SMG Məzmununda yer alan hər hansı müəllif hüququ, əmtəə nişanı yaxud digər mülkiyyət hüquqları qeydlərini silmək;
c. Xidmətlərimizin, hər hansı SMG Məzmunundan istifadə edilməsi yaxud kopyalanması kimi təhlükəsizlik yaxud dələduzluğun qarşısını alma yaxud məhdudlaşdırma xüsusiyyətlərini aradan qaldırmaq, sıradan çıxarmaq yaxud onlara mane olmaq yaxud Xidmətlərimizdən və ya SMG Məzmunundan istifadədə məhdudiyyətin tətbiq edilməsi;
d. viruslar, troyan proqramları, qurdlar, məntiq bombaları, casusluq və ya haker proqramları yaxud digər zərərli və texnoloji cəhətdən təhlükəli materialların bilərəkdən daxil edilməsi ilə Xidmətlərdən düzgün istifadə etməmək;
e. SMG Xidmətlərinin hər hansı hissəsinə giriş əldə etmək, onu tapıb çıxarmaq, çətinliklə toplamaq yaxud istinad etmək üçün hər hansı robot, hörümçək kimi saytaxtarma/tapıb çıxarma proqramları və ya digər avtomatik cihazdan, proses və vasitələrdən istifadə etmək;
f. SMG Xidmətlərinin şəbəkədə olmasının təmin edilməsi ilə istənilən vaxt birdən çox cihazın giriş əldə etməsinə şərait yaradılması da daxil olmaqla, SMG Xidmətlərini yaxud SMG-nin hər hansı xüsusiyyətlərini və ya funksionallığını hər hansı üçüncü tərəfə hər hansı səbəbdən icarəyə vermək yaxud götürmək, borc vermək, satmaq, sublisenziyasını vermək, həvalə etmək, yaymaq, dərc etmək, ötürmək yaxud başqa yolla təqdim etmək;
g. SMG Xidmətlərinin bir hissəsi olan veb səhifələrin hər hansı hissəsini yenidən formatlamaq yaxud onlara yeni şəkil vermək;
h. avtomatik vasitələrdən istifadə edərək yaxud saxta və ya qanunsuz yolla birdən çox Hesab yaratmaq; yaxud
i. istənilən istifadəçi barədə, onun əvvəlcədən yazılı icazəsi olmadan, şəxsi məlumatlar toplamaq yaxud saxlamaq.

**SMG Xidmətlərindən icazəsiz istifadənin yaxud düzgün istifadə etməmənin nəticələri.** Siz bu qaydalardan istənilən birini pozduğunuz zaman SMG Xidmətlərindən istifadə etmə hüququnuzun ləğv ediləcəyi ilə və bu Şərtlərdə yaxud istənilən digər müvafiq Şərtlərdə yer alan tələblərə və ya qadağalara əməl etmədiyiniz halda, SMG-nin əlavə məlumat vermədən SMG Xidmətlərinə girişinizi dayandırma səlahiyyətinə malik olması ilə razılaşırsınız. Siz həmçinin, əldə etdiyiniz istənilən Sayt Materiallarının hər hansı surətlərini tələb etdiyimiz halda qaytarmağa yaxud məhv etməyə razılıq verirsiniz.

SMG Xidmətlərindən icazəsiz istifadə etmək yaxud düzgün istifadə etməmək qəti şəkildə qadağandır; vəziyyətdən asılı olaraq, zərərlərə görə sizə qarşı mülki iddia qaldırıla bilər və/yaxud siz cinayət məsuliyyətinə cəlb edilə bilərsiniz. SMG bu Şərtlərin istənilən şəkildə pozulması yaxud SMG Xidmətlərindən icazəsiz istifadə edilməsi və ya düzgün istifadə edilməməsi barədə hüquq-mühafizə orqanlarının məlumatlandırılması haqqını özündə saxlayır. SMG Xidmətlərindən icazəsiz istifadə edilməsi və ya düzgün istifadə edilməməsi halında SMG Xidmətlərindən istifadə haqqınız dərhal ləğv ediləcək və SMG sizi məlumatlandırmadan SMG Xidmətlərinə girişinizi dayandıra bilər.

**SMG Xidmətlərindən istifadənizə görə Ödəmələr, Qiymətlər və digər Xərclər üçün Cavabdehliyiniz (Mətn Mesajlarının Qiymətləri daxil olmaqla).** SMG Xidmətlərindən istifadənizə görə istənilən ödəmələr, qiymətlər və digər xərclər üçün yalnız özünüz cavabdehsiniz. Əgər SMG Xidmətlərinə giriş imkanınız varsa və siz onlardan smartfon, tablet yaxud digər mobil cihazınızda istifadə edirsinizsə, siz Wi-Fi və ya iştirakçı mobil xidmət provayderi üzərindən simsiz rabitə xidmətinə malik olmalısınız. Bəzi xidmətlər mətn mesajlaşması (SMS yaxud MMS) imkanı tələb edə bilərlər. Mobil xidmət provayderiniz tərəfindən bütün mesaj və məlumatötürmə xərclərinə görə sizə yazılmış borc üçün yalnız

özünüzün cavadeh olmanız ilə razılaşırsınız. Biz təklif edə biləcəyimiz hər hansı mətn mesajlaşması xidməti üçün əlavə xərc tətbiq etmirik, lakin mesaj və məlumatötürmə xərcləri tətbiq edilə bilər. Bütün xərclər mobil xidmət provayderiniz tərəfindən hesablanır və bütün ödənişlər də ona edilir. Tarif planları və təfərrüatlar üçün mobil xidmət provayderinizlə əlaqə saxlayın. Mətn mesajlarının çatdırılmasında hər hansı gecikməyə yaxud mobil xidmət provayderiniz tərəfindən göstərilən rabitənin keyfiyyətindən asılı olaraq mətn mesajlarının göndərilə bilməməsinə görə SMG öhdəlik daşımır. Mətn mesajları bütün bölgələrdə hər zaman mövcud olmaya bilər.

**Mətn mesajları almaq üçün abunəlik razılaşmanızın nəticələri.** Bizdən mətn mesajları almaq üçün abunə olduğunuz halda, sizə göndərdiyimiz mətn mesajlarının tezliyi bizimlə olan sövdələşmələrinizdən asılı olacaq. **Mətn mesajları almanız üçün razılaşdığınız halda, siz mətn mesajlarının sizə çatdırılması üçün SMG-nin avtomatlaşdırılmış nömrəyığma sistemindən istifadə edə biləcəyini anlayır və onunla razılaşırsınız, həmçinin hər hansı mal yaxud xidmətlər satın almanıza icazə verilməsi üçün mətn mesajları almanıza razılıq verməyinizə ehtiyac olmadığını da başa düşürsünüz.**

5.4. Təqdimatlar. SMG vaxtaşırı olaraq sizə və digər istifadəçilərə könüllü şəkildə SMG Xidmətlərinə yaxud onun üzərindən (ümumiləşdirilmiş şəkildə, "**Təqdimatlar**") reytinqlər, fikirlər, video şərhlər, ideyalar, qeydlər, konsepsiyalar yaxud digər məlumat və ya materiallar göndərmək yaxud başqa şəkildə təqdim etmək imkanları təklif edə bilər.

Yalnız siz özünüz Təqdimatlarınız üçün və belə Təqdimatınızın təqdim edilməsi və göndərilməsi üçün cavabdehsiniz və cavabdeh olacaqsınız. Yalnız siz özünüz müəllif və ya mülkiyyət hüquqlarının pozulmasından ortaya çıxan zərərə, yaxud Təqdimatınıza görə ortaya çıxan istənilən digər ziyana görə məsuliyyət daşıyacaqsınız. Təmin etdiyiniz təfərrüatlardan asılı olaraq Təqdimat sizinlə əlaqəli ola biləcəyinə görə, Təqdimatı təqdim etdiyiniz və göndərdiyiniz zaman təmin etdiyiniz şəxsi məlumatların həcmini mümkün olduğu qədər məhdudlaşdırmalısınız.

Təqdimatı SMG-yə (və/yaxud səlahiyyətli nümayəndə[ləri]mizə) yaxud SMG Xidmətlərinin hər hansı bölməsinə göndərməklə, yerləşdirməklə və ya təqdim etməklə avtomatik olaraq razılaşırsınız və zəmanət verirsiniz ki, siz yaxud təqdim etdiyiniz materialın sahibi olan başqa şəxs açıq şəkildə qəbul edirsiniz ki, SMG-yə yaxud dünyanın müxtəlif yerlərində olan nümayəndələrimizə Təqdimatınızı (bütünlüklə yaxud hissələrlə) hazırda məlum olan yaxud bundan sonra yaranacaq istənilən media vasitəsində, istənilən məqsəd üçün, sizə pul ödəyərək və ya ödəməyərək çoxaltmaq, sublisenziaysını vermək (çoxsaylı səviyyələr üzərindən), yaymaq, onların əsasında başqa iş yaratmaq, yerinə yetirmək və çıxarışlar etmək üçün müstəsna olmayan, sublisenziya verə bilən (çoxsaylı səviyyələr üzərindən), ötürüləbilən, müəllif hüququna görə ödəniş olmadan, müddətsiz, geri alınmayan istifadə hüququ verirsiniz. Başqa sözlə, SMG Təqdimatınızı istənilən yerdə, istənilən vaxt, istənilən media vasitəsində və istənilən məqsəd üçün sizə pul ödəmədən yaxud qarşınızda öhdəlik götürmədən çoxaltmaq, açıqlamaq, dərc etmək yaxud yayımlamaq da daxil olmaqla, avtomatik olaraq istifadə etmək hüququna malikdir. Siz həmçinin istənilən istifadəçiyə, özünün şəxsi istifadəsi üçün Təqdimatınıza giriş əldə etmək, onları nəzərdən keçirmək, saxlamaq yaxud çoxaltmaq üçün icazə verirsiniz. Siz bununla SMG-yə (və/yaxud səlahiyyətli nümayəndələrimizə) Təqdimatınızı istənilən məqsəd üçün, istənilən yerdə istifadə etmək hüququ verirsiniz. SMG (və/yaxud səlahiyyətli nümayəndələrimiz) Təqdimatınızın birindən istifadə edərsə, siz heç bir halda ödəniş haqqına malik olmayacaqsınız. Bütün Təqdimatlar qeyri-məxfi və mülkiyyət hüququ olmayan hesab edilir.

Yerləşdirdiyiniz Təqdimat ictimaiyyətə açıq ola bilər. Siz Təqdimatınızla əlaqəli hər hansı məxfilik gözləntinizin olmadığını qəbul edirsiniz. Siz həmçinin Təqdimatı könüllü olaraq və riski öz üzərinizə götürməklə hazırladığınızı qəbul edirsiniz. Siz SMG, SMG-nin Müştəriləri, istənilən şəxs yaxud qurum haqqında məlumat, mülahizə yaxud digər material yerləşdirərkən məntiqli davranmalısınız. Siz şərləyici yaxud barəsində məhkəmə iddiası qaldırıla biləcək Təqdimatınıza görə digər istifadəçilərin, SMG-nin yaxud üçüncü tərəflərin düçar olduğu istənilən zərərlərə görə hüquqi cəhətdən məsuliyyət daşıya bilərsiniz. Yaşadığınız ölkədə müvafiq qanunlar başqa cür tələb etmədiyi halda, Təqdimatı göndərərkən siz onu istifadəçi adınızla yaxud təxəllüsünüzlə əlaqələndirə bilərsiniz.

SMG istifadəçilər tərəfindən hazırlanmış istənilən Təqdimat üçün, hətta o, şərləyici yaxud barəsində məhkəmə iddiası qaldırıla biləcək olduqda belə, hüquqi məsuliyyət daşımır. SMG, SMG Xidmətlərinə yaxud onun üzərindən yerləşdirilmiş yaxud başqa yolla təqdim edilmiş fikirlər, məsləhət yaxud tövsiyələr üçün məsuliyyət daşımır və onları dəstəkləmir. SMG xüsusilə belə Təqdimat ilə əlaqədar hər cür öhdəlikdən imtina edir. SMG, istifadəçilərin hazırlıq səviyyəsini, tərcümeyi-halını, bacarıqlarını yaxud hər hansı SMG Xidmətinə yaxud onun üzərindən ötürülərək yerləşdirmiş məlumatı nə təsdiqləmir, nə də yoxlamır. Buna görə də, SMG Təqdimatınızı hazırlayarkən sizə məntiqli olmağı və düzgün mühakimə yürütməyi tövsiyə edir.

Təqdimat yerləşdirməklə siz razılaşırsınız, bəyan edirsiniz və zəmanət verirsiniz ki, Təqdimatınız:

a. düzgün və dəqiqdir;
b. SMG Xidmətlərinin müəyyən edilmiş mövzu yaxud tematikasına uyğundur;
c. hər hansı üçüncü tərəfin müəllif hüququ, əmtəə nişanı, patent, ədəbi-bədii, kommersiya sirri, məxfilik, ictimai istifadə, mülkiyyət, müqavilə ilə bağlı yaxud digər hüququnu pozmur yaxud qanunsuz olaraq ələ keçirmir;
d. Kiminsə şəxsiyyətini təyin edən məlumat ehtiva etmir yaxud kiminsə şəxsi məlumatlarını başqa şəkildə ehtiva edən məlumata malik deyil (həmin şəxsin əvvəlcədən yazılı icazəsini almadığınız halda);
e. hər hansı üçüncü tərəf yaxud onun məhsulları və ya xidmətləri haqqında əsassız iddia ehtiva etmir;
f. hər hansı şəxsə yaxud quruma zərər verən yaxud zərərvermə ehtimalı böyük olan hər hansı böhtanlı, şərləyici, yanlış, yanıldıcı, ədəbsiz, nalayiq, pornoqrafik, zorakı, fanatik, açıq seksual məzmunlu, nifrət hissi oyadan,təhqiramiz, təhdidedici, incidici, cəmiyyətə zidd, seksual yaxud irqi cəhətdən təhqiredici şərhlər yaxud digər material ehtiva etmir;
g. qeyri-qanuni deyil və qeyri-qanuni fəaliyyəti yaxud bu tip fəaliyyətləri həyata keçirmək məqsədilə onların müzakirəsini təşviq etmir yaxud dəstəkləmir;
h. kommersiya məqsədli yaxud bzineslə əlaqəli deyildir, hər hansı məhsulu yaxud xidmətləri (qazanc üçün olaraq və ya olmayaraq) reklam etmir yaxud onları satmağı təklif etmir və ya başqalarından ödəniş tələb etmir (ianə və yardımlar üçün olan tələblər də daxil olmaqla);
i. virusu yaxud digər zərərli komponenti yoxdur yaxud SMG Xidmətlərini və ya hər hansı qoşulu şəbəkəni korlamır, pisləşdirmir yaxud zədələmir və ya başqa şəkildə hansısa şəxsin yaxud qurumun SMG Xidmətlərindən məmnuniyyətlə istifadəsinə mane olmur; and
j. Təqdimatınızla, həmçinin Təqdimatınızı (yaş məhdudiyyətləri də daxil olmaqla) yerləşdirdiyiniz yaxud üzərindən ötürdüyünüz SMG Xidmətləri ilə əlaqəli olan bütün müvafiq qanunlar, nizamnamələr, qaydalar, siyasətlər və müqavilə şərtlərinə uyğundur.

Siz qəbul edirsiniz ki, SMG istənilən Təqdimatı dəyişdirmək, silmək yaxud onun yerləşdirilməsindən imtina etmək və ya yerləşdirilməsinə icazə vermək hüququna malikdir, lakin belə öhdəliyi yoxdur. SMG sizin yaxud hər hansı üçüncü tərəfin yerləşdirmiş olduğu hər hansı Təqdimata görə məsuliyyət daşımır. SMG bütün istifadəçilərin bu şərtlərə uyğun olmalarını təmin edə bilməz və etmir və SMG ilə sizin aranızda olduğu kimi, siz bununla hər hansı belə uyğunsuzluq üzündən ortaya çıxa biləcək bütün zərər və zədələr riskini gözə alırsınız.

SMG Təqdimatınızıdakı şəxsi məlumatları minimum endirmənizi israrla tövsiyə edir, çünki başqa insanlar Təqdimatınızdakı şəxsi məlumatları görə və onlardan istifadə edə bilərlər. SMG Təqdimatınız vasitəsilə ötürməyi seçdiyiniz məlumat üçün cavabdeh deyildir.

## 6. ÜÇÜNCÜ TƏRƏF SAYTLARI VƏ XİDMƏTLƏRİ

SMG Xidmətləri sosial media da daxil olmaqla, üçüncü tərəf vübsaytları və xidmətlərinə linklər ehtiva edə bilər (ümumiləşdirilmiş şəkildə, “**Əlaqədar Xidmətlər**”). Əlaqədar Xidmətlər SMG-nin nəzarəti altında deyil və SMG Əlaqədar Xidmətlər yaxud hər hansı Əlaqədar Xidmətdə olan hər hansı məlumat və ya material yaxud ondan alınmış hər hansı şəkildə olan informasiya üçün cavabdeh deyildir. Linkin olması SMG-nin Əlaqədar Xidməti yaxud onun operatorları ilə hər hansı əlaqəni dəstəkləməsi anlamına gəlmir. SMG Əlaqədar Xidmətləri araşdırmır, yoxlamır yaxud ona nəzarət etmir. SMG yalnız sizin rahatlığınız üçün Əlaqədar Xidmətlərə linki təmin edir. Siz Əlaqədar Xidmətləri qəbul edərkən riski öz üzərinizə götürürsünüz.

## 7. MÜQAVİLƏNİN ETİBARLILIĞI, ZƏMANƏTLƏRDƏN İMTİNA VƏ ÖHDƏLİK MƏHDUDİYYƏTLƏRİ

SMG bu Şərtlərə qanun əsasında daxil olduğuna və bunu etmək üçün səlahiyyəti olduğuna zəmanət verir. Siz bu Şərtlərə qanun əsasında daxil olduğunuza və bunu etmək üçün səlahiyyətinizin olduğuna zəmanət verirsiniz.

**YUXARIDA AÇIQ ŞƏKİLDƏ VERİLMƏMİŞSƏ, SMG XİDMƏTLƏRİ "OLDUĞU KİMİ" VƏ “ƏGƏR MÜMKÜNSƏ” VERİLİR** (**BİRBAŞA VƏ YA DOLAYI HƏR HANSI ZƏMANƏT OLMADAN)**.
SMG, SMG Məzmununun yaxud SMG Xidmətləri və SMG Məzmunundan istifadə edərək alınası nəticələrin dəqiqliyi, etibarlılığı, tamlığı yaxud aktuallığı barədə təminat yaxud zəmanət vermir. SMG Xidmətləri və Məzmunundan istifadə zamanı bütün risklər sizə aiddir. Vaxtaşırı olaraq SMG Xidmətləri və SMG Məzmununa dəyişikliklər edilir. Dəyişikliklər istənilən vaxt edilə bilər. SMG Xidmətlərində mövcud olan bəzi materiallar üçüncü tərəflər tərəfindən verilə bilər. SMG bu cür üçüncü tərəf materialları üçün cavabdeh deyildir.

SMG XİDMƏTLƏRİ VƏ SMG MƏZMUNU HƏR HANSI ZƏMANƏT OLMADAN, “OLDUĞU KİMİ” VERİLİR. MÜVAFİQ QANUNUN MÜƏYYƏN ETDİYİ MAKSİMUM SƏVİYYƏDƏ, SMG XÜSUSİ OLARAQ MƏHSULUN FƏRZ EDİLƏN TAM YARARLILIQ ZƏMANƏTİ VƏ VƏZİYYƏTİ, XÜSUSİ MƏQSƏD ÜÇÜN UYĞUNLUĞU, MÜLKİYYƏT HÜQUQU, MÜLKİYYƏT YAXUD ÜÇÜNCÜ TƏRƏF HÜQUQLARININ POZULMAMASIQÜSURSUZLUĞU, FASİLƏSİZ İSTİFADƏSİ VƏ HƏR HANSI SÖVDƏLƏŞMƏNİN HƏYATA KEÇİRİLMƏSİ YAXUD SATIŞ QAYDASINDAN ORTAYA ÇIXAN ZƏMANƏTLƏR DƏ DAXİL OLMAQLA İSTƏNİLƏN ŞƏKİLDƏ OLAN BÜTÜN ZƏMANƏT VƏ ŞƏRTLƏRDƏN İMTİNA EDİR.

SMG ZƏMANƏT VERMİR Kİ, (A) SMG XİDMƏTLƏRİ TƏLƏBLƏRİNİZƏ CAVAB VERƏCƏK, (B) SMG XİDMƏTLƏRİNİN ƏMƏLİYYATI FASİLƏSİZ YAXUD VİRUSSUZ VƏ YA XƏTASIZ OLACAQ YAXUD (C) XƏTALAR DÜZƏLDİLƏCƏK. SMG XİDMƏTLƏRİ YAXUD SMG MƏZMUNUNDAN İSTİFADƏNİZ NƏTİCƏSİNDƏ AVADANLIĞA QULLUQ YAXUD ONUN ƏVƏZLƏNMƏSİ EHTİYACI YARANARSA VƏ YA GƏLİR YAXUD MƏLUMAT İTKİSİ BAŞ VERƏRSƏ, SMG HƏMİN XƏRCLƏR ÜÇÜN MƏSULİYYƏT DAŞIMAYACAQ. SMG YAXUD ONUN SƏLAHİYYƏTLİ AGENTLƏRİ TƏRƏFİNDƏN VERİLMİŞ HƏR HANSI ŞİFAHİ VƏ YA YAZILI MƏSLƏHƏT ZƏMANƏTİ ƏVƏZ ETMİR VƏ ETMƏYƏCƏK. BƏZİ YURİZDİKSİYALAR MÜƏYYƏN ZƏMANƏTLƏRİN İSTİSNA EDİLMƏSİNƏ İCAZƏ VERMİRLƏR, BU İSƏ O DEMƏKDİR Kİ, YUXARIDAKI BƏZİ YAXUD BÜTÜN İSTİSNALAR SİZƏ AİD OLMAYA BİLƏR.

**SMG-DƏN İSTİFADƏ EDƏRKƏN BÜTÜN RİSKLƏR SİZƏ AİDDİR.** SMG Xidmətlərindən (onun hər hansı materialı daxil olmaqla) narazısınızsa, sizin yeganə çıxış yolunuz SMG Xidmətlərindən istifadənizi dayandırmaqdır.

SİZ SMG-NİN YAXUD HƏR HANSI SMG XİDMƏTİNDƏ İSTİNAD EDİLƏN HƏR HANSI ÜÇÜNCÜ TƏRƏFİN AŞAĞIDAKILAR ÜÇÜN MƏSULİYYƏT DAŞIMAYACAĞI İLƏ RAZILAŞIRSINIZ: (A) BİRBAŞA, VASİTƏLİ, XÜSUSİ, BARƏSİNDƏ CƏZA HÖKMÜ ÇIXARILAN, TƏSADÜFİ, NƏTİCƏ ETİBARI İLƏ YARANAN ZİYANLAR YAXUD BARƏSİNDƏ CƏZA KƏSİLƏN ZİYANLAR DA DAXİL OLMAQLA HƏR CÜR ZİYANLAR YAXUD BAŞQA TİP ZİYANLAR (ƏVƏZLƏYİCİ MALLARIN VƏ XİDMƏTLƏRİN SATIN ALINMASI, İSTİSMAR KEYFİYYƏTİNİN YAXUD MƏLUMATIN VƏ YA GƏLİRİN İTMƏSİ YAXUD BİZNES FƏALİYYƏTİNDƏKİ FASİLƏ DƏ DAXİL OLMAQLA, LAKİN BUNUNLA MƏHDUDLAŞMAYAN), BU ŞƏRTLƏRLƏ ƏLAQƏLİ OLAN HƏR HANSI YOLLA ORTAYA ÇIXAN VƏ MƏSULİYYƏT SƏBƏBİ VƏ ƏSASININ YARANMASINDAN ASILI OLMAYAN YAXUD ZƏMANƏT, MÜQAVİLƏ, ŞƏRTSİZ MƏSULİYYƏT, İSTİSMAR QAYDALARININ POZULMASI (LAQEYDLİK DƏ DAXİL OLMAQLA VƏ BAŞQA YOLLA) SMG XİDMƏTLƏRİNDƏN VƏ ONUN MATERİALLARINDAN İSTİFADƏ MÜMKÜNSÜZLÜYÜ KİMİ ŞƏRTLƏRƏ YAXUD HƏR HANSI HÜQUQİ NƏZƏRİYYƏYƏ, HƏTTA SMG BU CÜR ZİYANIN MÜMKÜN OLACAĞI BARƏDƏ MƏSLƏHƏT VERMİŞ OLSA BELƏ, ƏSASLANMIŞ OLAN VƏ YA OLMAYAN, YAXUD (B) SMG XİDMƏTLƏRİNDƏN İSTİFADƏNİZLƏ ƏLAQƏLİ ORTAYA ÇIXAN İSTƏNİLƏN İDDİA, TƏLƏB YAXUD ZİYANLAR. BU MƏSULİYYƏTDƏN İMTİNA BİZİM CİDDİ SƏHLƏNKARLIQ YAXUD QƏSDƏN EDİLMİŞ YARAMAZ HƏRƏKƏTİMİZDƏN ORTAYA ÇIXAN MƏSULİYYƏTƏ AİD DEYİLDİR VƏ MÜVAFİQ QANUNLA QADAĞAN EDİLƏN HALLARDA TƏTBİQ EDİLMƏYƏCƏK.
BU BÖLMƏ 7-DƏ QEYD EDİLƏN ZƏMANƏTDƏN İMTİNALAR YAXUD MƏSULİYYƏTƏ MƏHDUDİYYƏTLƏR HƏR HANSI SƏBƏBDƏN QƏBUL EDİLMƏZ(LƏR)SƏ YAXUD YERİNƏ YETİRİLMƏSİ HƏR HANSI SƏBƏBDƏN MÜMKÜN OLMAZSA, BU RAZILAŞMAYA ƏSASƏN SMG-NİN MAKSİMUM MƏSULİYYƏTİ 1000 ABŞ DOLLARI İLƏ MƏHDUDLAŞDIRILMALIDIR.

**Siz qəbul edir və razılaşırsınız ki, yuxarıda təsdiqlənmiş məsuliyyət məhdudiyyətləri bu Şərtlərdə məsuliyyəti məhdudlaşdıran digər hallarla birlikdə əsas şərtlərdir və SMG sizə bu Şərtlərdə müəyyən edilmiş hüquqları vermək yerinə, yuxarıda təsdiqlənmiş məsuliyyət məhdudiyyətləri üzrə razılaşmanızı istərdi.**

ƏGƏR DAİMİ YAŞAYIŞ YERİNİZ KALİFORNİYADIRSA, SİZ KALİFORNİYA MÜLKİ MƏCƏLLƏSİNİN 1542-Cİ MADDƏSİNƏ ƏSASƏN ÖZ HÜQUQLARINIZDAN İMTİNA EDƏ BİLƏRSİNİZ. HƏMİN MADDƏDƏ BELƏ DEYİLİR: "ÜMUMİ İMTİNA BU İMTİNANIN HƏYATA KEÇİRİLMƏSİ ZAMANI KREDİTORUN BİLMƏDİYİ YAXUD MÖVCUD OLMASINDAN ŞÜBHƏ ETDİYİ, ONUN XEYRİNƏ OLAN İDDİALARA AİD EDİLMİR, ƏGƏR ONLAR ONA BƏLLİ

OLSAYDI, ONLAR ONUN DEBİTOR İLƏ OLAN MÜQAVİLƏSİNƏ CİDDİ ŞƏKİLDƏ TƏSİR ETMİŞ OLARDI."

**8. İTKİLƏRİN ƏVƏZİNİN ÖDƏNMƏSİ**

Siz öz hesabınıza SMG və onun müştərilərini, direktorlarını, əməkdaşlarını, işçilərini və agentlərini hər cür itkilərdən, öhdəliklərdən, iddialardan, cinayət təqibi yaxud tələblərdən, həmçinin, hər hansı pul itkisindən, xərclərdən, müdafiə xərclərindən, (a) Təqdimatınıza, (b) SMG Xidmətlərindən istifadənizə yaxud (c) bu Şərtlər, üçüncü tərəflərin hüquqları və ya müvafiq qanunu pozmanıza görə hər hansı üçüncü tərəfin SMG-yə qarşı qaldırdığı iddialar üçün məntiqəuyğun vəkil və mühasibatlıq xərclərindən qoruyacağınız, itkilərin əvəzinin ödənməsini təmin edəcəyiniz və onları məsuliyyətdən azad edəcəyinizlə razılaşırsınız. Bu itkilərin əvəzinin ödənməsi müddəası müvafiq qanunun qadağan etmiş olduğu halda tətbiq edilmir. SMG öz hesabına itkilərin əvəzinin ödənməsi şərtinə əsasən ortaya çıxan istənilən məsələnin müstəsna müdafiə və nəzarət hüququnu özündə saxlayır. SMG-nin əvvəlcədən yazılı razılığı olmadan, onun hüquqlarına və öhdəliklərinə təsir edəcək heç bir qərar qəbul edilə bilməz.

**9. MÜBAHİSƏLİ MƏSƏLƏLƏRİN HƏLLİ**

ABŞ-ın federal qanunu ilə tənzimlənməli olan hər hansı intellektual mülkiyyət hüquqları yaxud öhdəlikləri, hüquq pozuntusu iddiaları istisna olmaqla, bu Şərtlərlərdən doğan və onunla əlaqəli olan, SMG ilə sizin aranızda meydana gələn istənilən mübahisəli məsələlər hansı ölkənin vətəndaşı olduğunuzdan yaxud Xidmətlərdən harada istifadə etdiyinizdən asılı olmayaraq və hüquqi normaların ziddiyyətlərinə baxmayaraq, Missuri ştatının (Amerika Birləşmiş Ştatları) qanunlarına əsasən tənzimlənməli, izah edilməli və həll edilməldirlər. Bütün belə mübahisəli məsələlər Missuri ştatı ərazisində bağlanmış və orada yerinə yetirilən müqavilələrə aid edilən Missuri qanunlarına uyğun olaraq izah edilməlidirlər. Siz və SMG beynəlxalq mal alqı-satqısı Müqavilələri haqqında olan Birləşmiş Millətlər Konvensiyasının bu Şərtlərin izahı və ya şərhi üçün tətbiq edilməməsi ilə razılaşırsınız.

**SİZ VƏ SMG RAZILAŞIRSINIZ Kİ, HƏR TƏRƏF DİGƏR TƏRƏFƏ QARŞI FƏRZ EDİLƏN HƏR HANSI KOLLEKTİV İDDİADA YAXUD MƏHKƏMƏ PROSESİNDƏ İDDİAÇI VƏ YA KOLLEKTİV İDDİA İŞTİRAKÇLSI KİMİ DEYİL, YALNIZ FƏRDİ QAYDADA İDDİA QALDIRA BİLƏR.**

**SİZ VƏ SMG BÜTÜN İDDİALARIN BU BÖLMƏ 9-DA GÖSTƏRİLMİŞ QAYDADA HÜQUQİ ÖHDƏLİK YARADAN ARBİTRAJ MƏHKƏMƏSİ TƏRƏFİNDƏN TƏMİN EDİLMƏSİ VƏ İSTƏNİLƏN ÜMUMİ HÜQUQ MƏHKƏMƏSİNDƏ BELƏ İDDİALAR QALDIRMA HÜQUQUNDAN İMTİNA ETMƏYİNİZ BARƏDƏ RAZILAŞIRSINIZ. MƏLUMAT ƏLDƏETMƏ KİMİ MƏHKƏMƏDƏ MALİK OLACAĞINIZ HÜQUQUNUZ ARBİTRAJ MƏHKƏMƏSİNDƏ MÖVCUD OLMAYA YAXUD MƏHDUD OLA BİLƏR.**

SMG və onun agentləri, işçiləri, əməkdaşları, direktorları, rəhbərləri, varisləri, filialları yaxud tabeçiliyində olan qurumları ilə sizin aranızda bu Şərtlərlə əlaqəli yaxud onların izahı, pozulması, ləğvi yaxud qüvvədə olması, bu Şərtlərdən ortaya çıxan münasibətlərdən yaranan istənilən mübahisəli məsələ (qüvvədə olma barədə olan mübahisəli məsələlər də daxil olmaqla), arbitraj məhkəməsində bu Şərtlərin əhatə dairəsi yaxud hüquqi təminatı (ümumiləşdirilmiş şəkildə, "**Nəzərdən keçirilən mübahisəli məsələlər**") Amerika Arbitraj Assosiasiyası (AAA) tərəfindən, onun qaydalarının (onun istehlakçı-ilə əlaqədar mübahisəli məsələlər üçün olan qaydaları və prosesləri daxil olmaqla) qüvvədə olan gündə yerinə yetirilən, Missuri ştatında hüquqi öhdəlik yaradan arbitraj məhkəməsinə tabe tutulacaq. Hər hansı arbitraj məhkəməsi istintaqının başlamasından əvvəl, iddia qaldıran tərəf arbitraj məhkəməsinə iddia verməsindən ən azı 60 gün öncə digər tərəfə bu niyyəti barədə yazılı məlumat verməlidir. SMG belə bildirişi e-poçtla

hesab yaradarkən göstərdiyiniz yaxud başqa yolla SMG-yə təqdim etdiyiniz e-poçt ünvanınıza göndərəcək; siz belə bildirişi e-poçtla SMG-nin privacyofficer@smg.comünvanına göndərməlisiniz.

Sənədlərin məhkəməyə təqdim edilməsi, işin aparılması və arbitrin işi üzrə ödənişlər AAA-nın qaydaları ilə tənzimlənəcək. Lakin, əgər siz arbitraj məhkəməsinin xərclərinin mülki hüquq məhkəməsinin xərcləri ilə müqayisədə, məhkəmədə iştirakınızı mümkünsüz edəcək dərəcədə çox yüksək olduğunu göstərə bilsəniz, SMG sənədlərin məhkəməyə təqdim edilməsi, işin aparılması və arbitrin işi üzrə ödənişləri (arbitrin tələb etdiyi məbləği ödəyərək) edərək, arbitraj məhkəməsi xərclərinin məhkəmədə iştirakınızı mümkünsüz edəcək dərəcədə çox yüksək olmasının qarşısını alacaq. Əgər arbitr qaldırdığınız iddiaların əhəmiyyətsiz olduğuna qərar verərsə, siz SMG-nin arbitraj məhkəməsi ilə əlaqədar sizin yerinizə çəkdiyi xərcləri ona geri ödəyəcəyinizlə razılaşırsınız (istənilən halda, AAA-nın qaydalarına əsasən həmin ödənişi etmək öhdəliyi sizə aiddir).

AAA-nın Ticarət Arbitrajı Qaydalarına uyğun olaraq tək arbitr seçiləcəkdir.  Arbitraj məhkəməsi ingilis dilində aparılmalıdır. Arbitr məhkəmədə qanunla icazə verilə bilən yaxud ədalətlilik prinsipinə əsaslanaraq qərar qəbul etmək səlahiyyətinə malik olacaq, arbitrin qərarı hər iki tərəf üçün qanuni qüvvə qazanacaq və o, məhkəmə qərarı kimi istənilən səlahiyyətli yurisdiksiya məhkəməsində prosesə əlavə edilə bilər. Lakin arbitr, əvəzi cəzaçəkmə ilə ödənən ziyanlar üçün qərar vermə səlahiyyətinə malik olmayacaq və bu sənədlə hər iki tərəf həmin hüququndan imtina edir.  Arbitr müvafiq qanunu və bu Şərtlərin müddəalarını tətbiq edəcək; belə etməzsə, bu, arbitrin səlahiyyətindən düzgün istifadə etməməsi kimi qəbul ediləcək və verilən qərarın məhkəmə tərəfindən yenidən baxılmasına səbəb olacaqdır. Arbitrin qərarı yazılı izahat ilə birlikdə olmalı və o, məxfi qalmalıdır.  SMG və siz nəzərdən keçirilən istənilən mübahisəli məsələnin arbitraj məhkəməsinə yalnız fərdi qaydada təqdim ediləcəyi ilə razılaşırsınız.  **NƏ SMG-NİN, NƏ DƏ SİZİN NƏZƏRDƏN KEÇİRİLƏN HƏR HANSI MÜBAHİSƏLİ MƏSƏLƏNİ QRUP, NÜMAYƏNDƏ YAXUD ÜMUMİ XARAKTERLİ VƏKİL İDDİASI KİMİ ARBİTRAJ MƏHKƏMƏSİNƏ TƏQDİM ETMƏK HÜQUQUNUZ YOXDUR VƏ ARBİTRİN PROSESİ QRUP, NÜMAYƏNDƏ YAXUD ÜMUMİ XARAKTERLİ VƏKİLLİK ƏSASINDA APARMA SƏLAHİYYƏTİ OLMAYACAQ**.  Əgər müqavilənin bu Bölmə 9-dakı hər hansı müddəasının arbitraj məhkəməsi üçün hüquqi əsası olmadığı ortaya çıxarsa, həmin müddəa ləğv ediləcək və arbitraj məhkəməsi üzrə qalan şərtlər məhkəmə qərarına uyğun olaraq məcburi şəkildə yerinə yetiriləcək (ancaq qrup, nümayəndəlik yaxud ümumi xarakterli vəkilliklə bağlı arbitraj məhkəməsi heç bir halda olmayacaq). Əksinə, hansı nizamnamə yaxud qanunun tətbiq edilməsinə baxmayaraq, bu Şərtlərlə əlaqəli olan istənilən iddia üzrə bildiriş həmin iddianın yarandığı vaxtdan keçən bir (1) il ərzində verilməli yaxud birdəfəlik ödənməlidir.  Bu Bölmə 9-a uyğun olaraq, bu Şərtlər və əlaqədar sövdələşmələr Federal Arbitraj Aktı ilə tənzimlənir, 9 U.S.C. böl. 1-16 (FAA).

**Qeyd:** Bu Şərtlərlə razılaşmaqla, siz birmənalı olaraq Amerika Birləşmiş Ştatlarından kənarda olan istənilən yurisdiksiyanın qanunlarına əsasən SMG-yə qarşı başlada biləcəyiniz hər hansı iddialar yaxud proseslərin, o cümlədən, öz ölkənizin qanunlarına əsasən yaranmış iddialar yaxud proseslərin bu sənədlə rədd edilməsi və istənilən mübahisəli məsələ üçün sizin yeganə yerinizin və müvafiq qanunun Amerika Birləşmiş Ştatlarında olması ilə, bu Bölmə 9-a uyğun olaraq razılaşırsınız.

## 10. MÜKAFATLAR

Vaxtaşırı olaraq, SMG sizə mükafat balları, endirimlər yaxud xüsusi təkliflər (ümumiləşdirilmiş şəkildə, “**Mükafatlar**”) kimi mükafat əldə etmə imkanı təklif edə bilər. Biz sizi SMG Xidmətləri vasitəsilə Mükafatların nə zaman mövcud olacağı barədə məlumatlandıracağıq.   Həm

Mükafatların nə dərəcədə faydalı olması, həm də təklifin qüvvədə olma müddəti dəyişə bilər, odur ki, məlumat verilən kimi, hər Mükafatın təfərrüatlarına diqqət yetirin. SurveyMini üçün doxsan (90) gün ərzində reaksiyanız olmazsa, mükafat balları sıfırlanacaq. Mükafatlar yalnız şəxsi istifadəniz üçündür. Mükafatlarınızı ötürə, başqasına verə, sata, kommersiya fəaliyyətində istifadə edə yaxud barter edə bilməzsiniz. Qanunla tələb edilmədiyi halda, Mükafatlar nağd pulla əvəzlənə bilməz və SMG-nin yaxud müştərinin hər hansı reklam kampaniyası, təklifi və ya digər endirimi ilə birləşdirilə bilməz. Siz Mükafatlarınızı götürdükdən sonra sizə kredit balları verilməyəcək və ödənilmiş məbləğ geri qaytarılmayacaq. SMG Mükafatların mövcudluğunu dəyişdirmək, birdəfəlik yaxud müvəqqəti olaraq dayandırmaq haqqını özündə saxlayır. Siz, Mükafatlarla bağlı bütün məsələlərdə birmənalı olaraq son və yerinə yetirilməsi məcburi olan SMG-nin qərarlarını qəbul edəcəyinizlə razılaşırsınız.

## 11. MOBİL TƏTBİQETMƏ PROQRAMLARINA YENİLƏNMƏLƏR

Biz vaxtaşrş olaraq (yalnız öz qərarımızla) mobil tətbiqetmə proqramlarımız üçün təkmilləşmələr, yanlışlıqların düzəldilməsi, proqrama əlavələr və digər düzəlişlər və/yaxud yeni xüsusiyyətlərdən ibarət ola biləcək yenilənmələr hazırlayıb, həyata keçiririk (ümumiləşdirilmiş şəkildə, “**Yenilənmələr**”). Yenilənmələr həmçinin onların bəzi xüsusiyyətlərini və funksionallığını bütünlüklə dəyişdirə yaxud silə bilərlər. Siz SMG-nin hər hansı Yenilənmələri həyata keçirməsi və ya həyata keçirməyə davam etməsi yaxud hər hansı xüsusi xüsusiyyətlər və ya funksionallıqla təmin etməsi ilə bağlı öhdəlik götürməməsi ilə razılaşırsınız.

Mobil cihazınızın parametrlərindən asılı olaraq, mobil cihazınız internetə qoşulu olarkən aşağıdakılardan biri baş verəcək: (a) Yenilənmələr avtomatik olaraq endirilərək quraşdırılacaqlar; yaxud (b) siz mövcud Yenilənmələri endirməniz və quraşdırmanız barədə bildiriş ala bilərsiniz və ya bu sizə xatırladıla bilər.

Bütün Yenilənmələri dərhal endirin və quraşdırın. Əgər bunu etməsəniz, SMG Xidmətlərinin bəzi hissələri lazımi qaydada işləməyə bilərlər. Siz həmçinin razılaşırsınız ki, bütün Yenilənmələr SMG Xidmətlərinin bir hissəsi hesab ediləcək və bu Şərtlərin bütün müddəalarına cavab verəcək.

## 12. ELEKTRON MÜQAVİLƏNİN BAĞLANMASI

Sizin SMG Xidmətlərindən düzgün istifadə etmə davranışınız və/yaxud onda qeydiyyatdan keçmiş olmanız, bizimlə elektron müqavilə bağlamağa razı olmanız deməkdir.

## 13. COĞRAFİ MƏHDUDİYYƏTLƏR/İXRACATA NƏZARƏT

SMG Xidmətləri və SMG Məzmunu Amerika Birləşmiş Ştatlarının Missuri ştatında yerləşir və Birləşmiş Ştatlardan kənarda olan şəxslərin onlara giriş əldə edə bilməsi və belə şəxslər tərəfindən istifadə edilə bilməsinə rəğmən, siz hüquqi və istismar xarakterli səbəblərlə əlaqədar öz ölkənizdən SMG Xidmətləri və SMG Məzmununa giriş əldə edə bilməyəcəyinizi qəbul edirsiniz. SMG Xidmətləri və SMG Məzmununa Amerika Birləşmiş Ştatlarından kənarda giriş əldə etdiyiniz halda SMG Məzmunun ixracı, idxalı yaxud idxal edilmiş məhsulun ixracı ilə əlaqəli yerli qanunlar da daxil olmaqla siz yerli qanunlara riayətə məsuliyyət daşıyırsınız.

SMG Xidmətləri bəzi ölkələrdə ixracata nəzarət qanunları ilə, ABŞ İxracatı İdarəetmə Aktı və onunla əlaqəli olan nizamnamələr də daxil olmaqla, tənzimlənə bilər. Siz bu tip qanun və nizamnamələrə əməl edəcəyinizlə, birbaşa yaxud dolayı yolla SMG Xidmətlərini qanun, qayda və ya nizamnamə ilə ixracı, idxal edilmiş məhsulun ixracı yaxud ötürülməsi qadağan edilmiş ölkələrə ixrac, idxal edilmiş məhsulu ixrac etməyəcəyiniz yaxud ötürməcəyiniz yaxud həmin ölkələrdə onun əldə edilməsinə imkan yaratmacağınızla razılaşırsınız. Siz həmçinin SMG Xidmətlərini ixrac etmədən, idxal edilmiş məhsulu ixrac etmədən, yaxud ötürmədən və ya onun

ABŞ-dan kənarda əldə edilməsinə imkan yaratmadan öncə bütün müvafiq federal qanun, nizamnamə və qaydalara əməl edəcəyinizlə, öhdəliyinizə düşən bütün işləri (ixracat üçün zəruri olan lisenziyalar yaxud dövlət qurumlarından alınası digər icazələr daxil olmaqla) yerinə yetirəcəyinizlə razılaşırsınız. Bundan əlavə, istənilən SMG Məzmununu endirməklə siz razılaşırsınız ki, siz belə ixracatın qadağan edilmiş olduğu ölkədə deyilsiniz və siz ABŞ Ticarət Nazirliyinin İmtina edilən sifarişlər cədvəlində yaxud ABŞ Maliyyə Nazirliyinin Xüsusi kateqoriyadan olan və qadağa qoyulmuş şəxslər siyahısında deyilsiniz.

**14. ABŞ HÖKUMƏTİNİN HÜQUQLARI**
SMG Xidmətləri 48 C.F.R. §2.101-də müəyyən edildiyi kimi ticari proqram təminatıdır. Buna uyğun olaraq, əgər siz ABŞ hökumət agentliyi yaxud hökumət sifarişi yerinə yetirən şirkətsinizsə, Müdafiə Nazirliyi və onun podratçıları ilə bağlı olan (a) 48 C.F.R. §227.7201 - 48 C.F.R. §227.7204-ə uyğun olaraq, yaxud digər bütün ABŞ hökumət lisenziatları və onların podratçıları ilə (b) bağlı olan 48 C.F.R. §12.212-ə uyğun olaraq siz yalnız SMG Xidmətləri ilə əlaqədar bütün digər istifadəçilərin lisenziya əsasında əldə etdiyi hüquqları əldə edirsiniz.

**15. LƏĞVETMƏ**

SMG yalnız öz qərarı ilə, sizə məlumat verərək yaxud verməyərək, istənilən vaxt və istənilən səbəbə görə, sizin yaxud hər hansı üçüncü tərəf qarşısında məsuliyyət daşımadan SMG Xidmətlərində dəyişiklik edə yaxud onun göstərilməsində fasilə verə bilər və ya sizin hesabınızda yaxud SMG Xidmətlərinə giriş əldə etmənizə dəyişiklik edə, onları müvəqqəti olaraq dayandıra yaxud ləğv edə bilər Məsələn, əgər SMG-yə yetkinlik yaşına çatmamış olduğunuz bəlli olarsa, sizə məlumat verilərək yaxud verilməyərək hesabınız ləğv edilə və SMG Xidmətlərinə girişinizə icazə verilməyə bilər. Başqa misal olaraq, əgər SMG-yə sizin yanlış, yarımçıq yaxud qeyri-dəqiq məlumat verdiyiniz yaxud başqa şəkildə bu Şərtlərə və ya hər hansı müvafiq Əlavə Şərtlərə əməl etmədiyiniz bəlli olarsa, SMG sizə məlumat verərək yaxud verməyərək Hesabınızı ləğv edə və sizi SMG Xidmətlərindən istifadə imkanından məhrum edə bilər.

Əgər biz əldə etdiyiniz hər hansı Sayt Materialının surətini geri qaytarmanızı yaxud məhv etmənizi tələb etsək, siz bunları edəcəyinizlə razılaşırsınız.

Ləğvetmə SMG-nin hər hansı digər hüquqlarını yaxud hüquqlarının qorunması yollarını məhdudlaşdırmayacaq. Bu Şərtlər hər hansı belə dəyişikliyə, fasiləyə, müvəqqəti dayandırılmaya və/yaxud ləğvetməyə baxmayaraq birmənalı olaraq qüvvədə qalacaq və tətbiq edilməyə davam edəcək.

**16. MÜƏLLİF HÜQUQU POZUNTUSU ÜZRƏ İDDİALAR**
SMG başqalarının intellektual mülkiyyət hüquqlarına hörmətlə yanaşır. Biz qanun pozuntusu barədə bildirişə ABŞ-ın Rəqəmsal Dövrdə Müəllif Hüquqlarının Qorunması Qanununun ("**DMCA**") tələb edildiyi şəkildə, lazım olan yerdə, qanun pozuntusu fəaliyyəti ilə əlaqədar olması iddia edilən materialı yox etməklə yaxud ona girişi qeyri-aktiv etməklə cavab veririk.

Əgər siz gerçəkdən işinizin müəllif hüququ pozuntusuna səbəb olan şəkildə kopyalanmış yaxud intellektual mülkiyyət hüquqlarınızın SMG Xidmətləri ilə əlaqədar olaraq pozulmuş olduğuna inanırsınızsa, qanun pozuntusu iddianızı yaxud bildirişinizi DMCA agentinə ya poçtla:

DMCA Agent
Service Management Group, LLC
1737 McGee Street
Kansas City, MO 64108

Yaxud e-poçtla göndərin:
privacyofficer@smg.com

Qeydlərinizə aşağıdakı məlumatları daxil etməlisiniz:

a. müstəsna hüququnun pozulmuş olduğu güman edilən material sahibinin adından çıxış etməsinə səlahiyyət verilmiş şəxsin fiziki yaxud elektron imzası
b. müəllif hüququnun pozulmuş olduğu güman edilən materialın müəyyən edilməsi yaxud bir vebsaytda müəllif hüququ qorunan bir çox iş tək bildirişlə göstərilmişsə, o saytda olan həmin işlərin tipik siyahısı;
c. müəllif hüququnun pozulduğu yaxud pozuntu fəaliyyətinə məruz qaldığı güman edilən və yox edilməli yaxud girişi qeyri-aktiv edilməli olan materialın müəyyən edilməsi və xidmət provayderinə materialı aşkar etməyə imkan verən yetərli məlumat;
d. şikayətçi tərəflə əlaqə saxlaya bilməsi üçün xidmət provayderinə lazım olan ünvan, telefon nömrəsi kimi yetərli məlumat və əgər mövcuddursa, şikayətçi ilə əlaqə saxlanmağa imkan verən elektron poçt ünvanı;
e. şikayət edilən materialdan müəllif hüququ sahibinin, onun agentinin yaxud qanunun icazə vermədiyi şəkildə istifadə edilməsi barədə olan, şikayətçinin gerçəkdən inanmış olduğu bəyanat; və
f. bildirişdəki məlumatın düzgün olduğunu və şikayətçi tərəfə, qəsdən yanlış məlumat verməyə görə cinayət məsuliyyəti daşıyaraq, müstəsna hüququnun pozulmuş olduğu güman edilən material sahibinin adından çıxış etməyə səlahiyyət verilmiş olduğunu göstərən bəyanat.

DMCA agentimiz yalnız DMCA-nın tələblərinə cavab verən bildirişləri və sorğuları nəzərə alacaq.  Ətraflı məlumat üçün www.copyright.gov-ə baxın.

## 17.  KALİFORNYANIN DAİMİ SAKİNLƏRİ ÜÇÜN MƏLUMAT

Kaliforniya Mülki Məcəlləsinin 1789.3 Bölməsinə əsasən bizim, Kaliforniyanın daimi sakinlərini istehlakçı hüquqları haqqında aşağıdakı xüsusi məlumatla təmin etməmiz lazımdır.

a. SMG Xidmətləri 1737 McGee Street, Kansas City, MO 64108 ünvanında yerləşən Service Management Group, MMC-yə məxsusdur və /yaxud onun tərəfindən işlədilir. Əlaqə saxlamaq üçün SMG-nin telefon nömrəsi: 1-800-764-0439;
b. başqa cür bəyan edilmədiyi halda SMG Xidmətləri pulsuz olaraq göstərilir;
c. SMG Xidmətləri ilə bağlı şikayət etmək yaxud SMG Xidmətlərindən istifadə ilə bağlı əlavə məlumat almaq üçün bu ünvana yazın: Service Management Group, LLC, Attn: Data Protection Officer, 1737 McGee Street, Kansas City, MO 64108 yaxud bizimlə e-poçtla əlaqə saxlayın: privacyofficer@smg.com (Mövzu sətrinə “California Resident Request” yazın). Siz həmçinin 400 R Street, Suite 1080, Sacramento, California 95814 ünvanına yazaraq yaxud 916.445.1254 və ya 800.952.5210 nömrələrinə zəng edərək Kaliforniyadakı İstehlakçı İşləri İdarəsinin, İstehlakçıya Xidmət Şöbəsinin, Şikayətçilərə Yardım Bürosu ilə əlaqə saxlaya bilərsiniz .

**18. MÜXTƏLİF MƏLUMATLAR**

a. Bu Şərtlər və müvafiq saytlarda yer alan məxfilik siyasətləri həmin materiallarla əlaqədar olaraq SMG və sizin həmfikir olduğunuzu göstərir.
b. Bu Şərtlər ingilis dilində yazılıb. İngilis dilində olan bu Müqavilə hər cəhətdən üstün olacaq. Bu Müqavilənin başqa dillərdə olan digər versiyaları yalnız rahatlığı təmin etmək üçündür və onlar tərəflər qarşısında öhdəlik qoymurlar.
c. Bu Şərtlər SMG-nin və sizin qanuni varislərinizin üçün hüquqi qüvvəyə malik olacaq və ona əməl etmələri müvafiq qaydada məcburi olacaqdır.
d. SMG Bu Şərtlər üzrə hüquqlarını üçüncü tərəf üçün güzəştə gedə bilər, lakin siz SMG-nin əvvəlcədən yazılı razılığı olmadan bunu edə bilməzsiniz.
e. Bu Şərtlərin hər hansı müddəasının hüquqi əsası yoxdursa yaxud zaman içərisində belə olarsa, yerdə qalan müddəalar, sanki həmin hüquqi əsası olmayan müddəa heç istifadə edilməmişdi kimi, öz hüquqi qüvvəsini saxlayacaqlar.
f. Əgər SMG yaxud siz bu Şərtlərin qoyduğu hər hansı öhdəliyi yerinə yetirməsəniz və qarşı tərəf digərini həmin öhdəliyi yerinə yetirməyə məcbur etməzsə, hər hansı halda hüququn üstünlüyünün təmin edilməməsi hər hansı öhdəlikdən imtina edilməsinə səbəb olmayacaq və digər hallar üçün hüququn üstünlüyünün təmin edilməsinin qarşısını almayacaq.
g. Bu Şərtlərin heç bir hissəsi SMG-ni və sizi bir-birinizin agenti yaxud nümayəndəsi yaxud müştərək müəssisələr və ya tərəfdaşlar kimi əks etdirməyəcək.
h. Əgər SMG yaxud siz imkanınız xaricində olan istənilən səbəbdən dolayı bu Şərtlər üzrə hər hansı öhdəliyi yerinə yetirə bilməzsəniz, zərər görmüş tərəfin öhdəliyini yerinə yetirmə müddəti digər tərəfin həmin səbəbdən dolayı dayandığı müddət qədər uzadılacaq.
i. Başlıqlar və sərlövhələr yalnız rahatlıq üçündür.

**SUALINIZ VAR?**

Bu İstifadə Şərtləri yaxud SMG Xidmətləri haqqında hər hansı sualınız olduğu halda, bizimlə əlaqə saxlayın: privacyofficer@smg.com.

Siz həmçinin bizə yaza bilərsiniz:
Service Management Group, LLC
Attn: Data Protection Officer
1737 McGee Street
Kansas City, MO 64108

®/TM ticarət nişanları © Service Management Group, MMC 2017. Bütün hüquqlar qorunur.